2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvləri Tofiq Həsənov, Qabil Orucov və Samir Tağıyevin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2014-cü il tarixli 56 və 58 saylı, 26 dekabr 2014-cü il tarixli 79 saylı müraciətlər üzrə

**BİRGƏ RƏYİ**

Bakı şəhəri 26 dekabr 2014-cü il

Biz, ekspert qrupunun üzvləri Tofiq Həsənov, Qabil Orucov, Samir Tağıyev 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 83 saylı Ağcəbədi-Füzuli seçki dairəsindən Sarıcalı bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Nərimanov Nəriman Yusif oğlu, Hüseynov Müşviq Firuddin oğlu, Qasımov Rəşad Həbib oğlu 2014-cü il dekabrın 26-də və Hüseynova Şəfiqə Fərhad qızı tərəfindən 2014-cü il dekabrın 28-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətləri araşdırarkən aşağıdakıları müəyyən etdik:

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin və “Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 83 saylı Ağcabədi-Füzuli seçki dairəsindən Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Nərimanov Nəriman Yusif oğlu, Hüseynov Müşviq Firuddin oğlu, Qasımov Rəşad Həbib oğlu və Hüseynova Şəfiqə Fərhad qızı Mərkəzi Seçki Komissiyasına müraciət edərək səsvermə günü həmin seçki dairəsi üzrə 26 saylı seçki məntəqəsində səslərin hesablanması aparıldıqdan sonra səsvermənin nəticələri haqqında yekun protokolunun məntəqə seçki komissiyasında deyil, dairə seçki komissiyasında tərtib edildiyini bildirmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma zamanı 83 saylı Ağcabədi-Füzuli seçki dairəsi dairə seçki komissiyasının və həmin dairənin 26 saylı məntəqə seçki komissiyası üzvlərinin, Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış digər namizədlərin, həmin seçki məntəqəsində müşahidə aparmış müşahidəçilərin izhatlarına və tərtib edilmiş aktlara əsasən səsvermə günü səslərin hesablanması aparıldıqdan sonra səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının protokolunun məntəqə seçki komissiyasında deyil, dairə seçki komissiyasında tərtib edilməsi iddiası öz təsdiqini tapmamışdır.

Belə ki, 26 saylı məntəqə seçki komissiyasının katibi Z.X. Sadıqova izahatında bildirmişdir ki, səslərin hesablanması başa çatdıqdan sonra səsvermənin nəticələri haqqında yekun protokol onun tərəfindən tərtib olunmuş, komissiya üzvləri tərəfindən

imza edilmiş, protokolun bir nüsxəsi məlumat lövhəsindən asılmış, surətləri müşahidəçilərə və qeydə alınmış namizədlərə təqdim olunmuşdur.

Bundan başqa Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış digər namizədlər A.M.Süleymanov, M.H.Ədilov, 26 saylı seçki məntəqəsində müşahidəçi olmuş F.Ə.Dadaşov, G.Ə.Hüseynov öz izahatlarında bildirmişlər ki, səsvermə prosesində heç bir qanun pozuntusu olmamış, səslərin hesablanması və səsvermənin nəticələri haqqında yekun protokol seçki məntəqəsində qanunda nəzərdə tutulmuş qaydada tərtib edilərək dairə seçki komissiyasına aparılmışdır.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətlərdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i k :**

1. 83 saylı Ağcabədi-Füzuli seçki dairəsindən Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Nərimanov Nəriman Yusif oğlunun 26 dekabr 2014-cü il tarixli 56 saylı, Hüseynov Müşviq Firuddin oğlu və Qasımov Rəşad Həbib oğlunun 26 dekabr 2014-cü il tarixli 58 saylı və Hüseynova Şəfiqə Fərhad qızının 28 dekabr 2014-cü il tarixli 79 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü — Tofiq Həsənov

Ekspert qrupunun üzvü — Qabil Orucov

Ekspert qrupunun üzvü — Samir Tagıyev